AZƏRBAYCANIN ADI MÖVZUSU
(OĞUZ TEORİSİ)

Doç. Dr. Seyfettin ALTAYLI

Bakı Avrasiya Universiteti, Müəllimi və Türkoloji Mərkəzin Baş Elmi İşçisi

***ORCİD NÖMRƏSİ:* 0000-0002-1283-4489**

Öz

Türklər Sarı çayın döngəsindən Adriyatik sahillərinə, Qıpçak bozqırlarından Sibirə və şimali Afrikaya, hətta şimali Amerikanın bəzi bölgələrinə kimi yayılmış bir millətdir. Türklərin yaşı tarixlə yanaşı başlamışdır. Bu fikir sadəcə olaraq *hissiyyatla* irəli sürülmüş bir düşüncə deyildir. Bunu arxeoloji qazıntılar, etnologiya və folklor sübut etmişdir. Türklərin 1071-ci ildə Malazgirt zəfəri ilə Anadoluya gəlib məskunlaşdıqları qərblilərin və onların təsir dairəsindəkilərin uydurduğu bir fikirdir. Türklər millət olaraq tarixin bilinməyən çağlarından etibarən Anadolu və qonşuluğundakı Azərbaycan coğrafiyasını özünə yurd etmişdir.

Atatürk Azadlıq hərbi zamanında və sonrasında siyasi, hərbi bir düha olaraq mənsubu olduğu millətinə yüksək bir ruh bəxş etmək istəmiş və bunu həm hərbi, həm siyasi, həm də mədəni mənada başarmış bir şəxsiyyətdir. Yaxşı türk deyilən etnik xalq yalnızca Anadoluda yaşıyanlardan ibarətdir də Atatürk türk milləti ilə bağlı olaraq yalnızca onlara yeni bir ruh aşılayacaq mesajlar vermək istədi və ya Anadolu türklüyü özünə məxsus bir ictimaiyyətdirmi, yaxın qohumları vardırmı? Qonşuluğundaki Azərbaycan ilə etnik və mədəni bir rabitəsi vardırmı? İndiyə kimi bu haqda bir çox araşdırmalar aparılmış və müxtəlif fikirlər irəli sürülmüşdür, ancaq Azərbaycan termini nə deməkdir, bu ad nədən mənbələnmişdir, bu adı kim vermişdir? Əlbəttə bu mövzuda müxtəlif alimlər araşdırmalar apararaq öz fikirlərini irəli sürmüşdür, ancaq ortak bir məxrəcə çatıla bilməmişdir. Bu məqalədə Azərbaycan, Anadolu və Asiya türklüyünün etno-mədəni birliyinin kökləri və Azərbaycan adının mənşəyi mövzusu haqda araşdırmalar aparılaraq elmi faktlar irəli sürülmüşdür.

Anahtar kəlimələr:

Atatürk, Türk, Azərbaycan, Anadolu, mesaj.

THE NAME OF AZERBAİJAN İS THE SUBJECT
(thə Oghuz Thəory)

Abstract

The Turks are a people who have spread across a vast geographical area, extending from the bend of the Yellow River to the shores of the Adriatic, from the Kipchak steppes to Siberia and North Africa, and even to certain regions of North America. The antiquity of the Turks dates back to the earliest periods of recorded history. This is not merely an emotional assertion but a fact supported by research in archaeology, ethnology, and folklore. The view, often attributed to Western scholarship, that the Turks came to Anatolia and settled there only after the Battle

of Manzikert in 1071 is regarded by some scholars as a constructed interpretation. According to these perspectives, the Turks as a people had already adopted Anatolia and the neighboring geography of Azerbaijan as their homeland since the unknown periods of early history.

During and after the Turkish War of Independence, Atatürk, as a political and military genius, sought to instill a strong sense of spirit and identity in the nation to which he belonged, and he succeeded in doing so in military, political, and cultural spheres. In this context, several important questions arise: Did the ethnic group known as the Turks consist only of those living in Anatolia, such that Atatürk aimed solely to glorify them in his messages regarding the Turkish nation? Or is Anatolian Turkishness a unique phenomenon, or does it have close relatives? Has there been an ethnic and cultural connection with neighboring Azerbaijan? Numerous studies have been conducted on these issues and various interpretations have been proposed. However, the meaning of "Azerbaijan" as a geographical term, the origin of this name, and who first gave it remain subjects of scholarly debate, and no common consensus has yet been reached. This article focuses on the origins of the ethnic and cultural unity among the Turks of Azerbaijan, Anatolia, and Asia, as well as on the etymology of the name "Azerbaijan."

Keywords: Atatürk, Turk, Azerbaijan, Anatolia, message.

Giriş

Bakı Türkoloji qurultayında arxeologiyadan danışılmış və terminlərin vahidləşməsinin vacibliyi vurğulanmışdır. Bu məqalədə Azərbaycan termininin yaranması məsələsi üstündə dayanılacaq və aparılan araşdırmaların nəticəsi elmi faktlarla dilə gətiriləcəkdir.

İnsan yaranıb dünyaya gəldiyindən bəri qarşılaşdığı müşəxxəs objektlərin və zehnində canlandırdığı mücərrəd olan hər bir şeyin nəyə işarət etdiyinə öz etnik anlayışına görə ad vermiş və bu anlayış tarix boyu davam etmişdir. Bu vəziyyət də hər bir dilin möhtəşəm bir söz xəzinəsinə malik olduğunun dəlilidir.

Türklər millət olaraq adını Göytürk dövlətini quran Aşinaoğullarına mənsub "Türk" boyunun adından almış və bu ad "qüdrətli, güclü, qüvvətli, gözəl, törə sahibi, inkişaf etmiş" mənalarındadır (Kafesoğlu, 1998: 43-45).

Ulu Öndər Atatürk Türk millətini təsvir ədərkən, "Bu məmləkət, dünyanın bəkləmədiği, asla umut ətmədiği bir müstəsna məvcudiyətin yüksək təcəllisinə sahnə oldu. Bu sahnə 7 min sənəlik, ən aşağı, bir Türk bəşiğidir. Bəşik tabiatın rüzgarları ilə sallandı; bəşiğin içindəki çocuk tabiatın yağmurları ilə yıkandı. O çocuk tabiatın şimşəklərindən, yıldırımlarından, kasırgalarından əvvəla korkar kimi oldu; sonra onlara alıştı, onları tabiatın babası tanıdı, onların oğlu oldu. Bir gün o tabiat çocuğu tabiat oldu, şimşək, yıldırım, günəş oldu; Türk oldu. Türk budur. Yıldırımdır, kasırgadır, dünyayı aydınlatan günəştir." dəmiştir.

Kaşqarlı Mahmud "Divanû Lûgati't Türk" adlı əsərində türkün kim olduğunu bu sətrlərlə vurğulamışdır:

"Türklər əslində iyirmi boydur. Onların tamamı Tanrı razı olsun Yalavac Nuh oğlu Yafəs, Yafəs oğlu Türkə kimi gedib çıxır. Onlar Tanrı razı olsun Yalavac İbrahim oğlu İsaq, İsaq oğlu İysu, İysu oğlu Rum kimidir. Mən onların kökünü və əsas boylarını saydım;

oymaqlara toxunmadım. Ancaq hamı bilsin deyə əsas olanı, Oğuz qollarını və heyvanlarına vurulan damğalarını yazdım” (Mahmud-I, 1985: 28).

Fəzlullah Həmədani də Nuhun dünyanı oğulları arasında bölüşdürərkən Yafəsə şərq ellərini, Türküstanı verdiyini, Türklərin Yafəsə Olcay xan dediyini, Olcayın köçəri yaşadığını, yaylaqla qışlağının Türküstanda, paytaxdının Qaydu deyilən yerdə, Dib Yabqu adında oğlu olub, özünün böyük bir xaqan və Qara xan, Or xan, Kür xan, Küz xan adlı dörd oğlu olduğunu, Oğuzun da vəliəhd Kür xanın oğlu olduğunu qeyd etmişdir (Togan, 1982: 17).

Oğuz xaqan dastanı da türk epik sənətinin başda dayanan əsərlərindən biridir. Dastan Orta əsrdə yazıya köçürülsə də türk tarixinin müəyyən dövrlərini əhatə etmiş, yarandığı gündən bəri müəyyən tarixdə sona çatdırılmayaraq axıb gedən bir çay kimi davam etmiş (Ercilasun, 2019: 34), türklərin kosmik anlayışını, dövlət gələnəyini, sosial nizamını, idarə tərzini əsas prinsiplərini cəmləmişdir.

Türk dastanları fövqəladə vəsflərə malik qəhrəmanlara malikdir və xalqın könlündəki ideal tipləri təmsil edərək müəyyən simvollarla dilə gətirmişdir (Duymaz, 2007: 50).

Yaxşı Oğuz və oğuzlar kimdir, Tanrı, insan və yaradılışla bağlı düşüncələri, inamları nələrdir, haralarda yaşamışlar, tarixinin hansı mərhələlərində özlərini göstərmişlər, Anadolu və Azərbaycan türklüğü ilə əlaqələri vardırmı, adət və ənənələri nələrdir, qurduqları dövlətlərin vəsfi necədir, nələrə önəm vermişlər və s. suallar yaranır.

Bu mövzuda ilk həll ediləsi vacib məsələ Oğuz xaqanın kimliyidir. Türk tarixində belə bir tarixî şəxsiyyət doğrudan da yaşayıbmı, peyğəmbərdimi, mifoloji bir ünsürdürmü və ya bir dastan qəhrəmanından ibarətdirmi?

Bu mövzuda Vambəry Oğuz sözünü Yunan mənbələrindəki oxus ilə birləşdirmiş, oğ, ak və uz’dan (İnan, 1936: 23) ibarət olduğunu, Marquart isə ok+uz hecalarından yarandığını (Hamilton, 1997: 188), Gyula Nemeth Oğuz sözünün ok+z boylar, uruqlardan yarandığını irəli sürmüş (Yüksekkaya, 2020: 238; Sümer, 1972: 1; Süme, 2018: 264), İbrahim Kafesoğlu da bu fikri dəstəkləmişdir (Kafesoğlu, 1998: 150-151; Korkmaz, 2010: 4). Digərlərinə baxdıqda Nemethin fikri mövzunun aydınlaşdırılması yönündən daha ağlabatandır.

Louis Bazin buna müxalifət etmiş (Bazin, 2015: 33-34), Berezin isə oğuz sözünün heyvanın ilk südü olduğunu ireli sürmüş (Pelliot, 1995: 15), Pelliot da Berezini dəstəkləmişdir. Oğuzun buğa anlamına gəldiyini ilk dəfə Franz Erdmann irəli sürmüş (Sinor, 1950: 6), Kononov bu kəlmənin ilk hecası olan oğ morfemini ög/öğ, oğul, oğuş (qohum) kimi sözlərin başındaki og ünsürü ilə əlaqələndirmiş (Nalbant, 2010: 50), N.A. Baskakov da oğuz,

ogur/öğür etnoniminin ö- (düşünmək) kökündən ög/öy “ağıl”+-ġuz/güz, -uz/üz, ġur/gür, -ur/-ür feilindən ad yaratma şəkilçisi ö-güz/ög-üz, ö-gür/öğür/ög-gür “bilgə” anlamlarına gəldiyini (Baskakov, 1986: 35-37), J.R. Hamilton isə Oġur boylarında -z’nin -r’ya çevrilməsini qəbul etməyərək adın uyġurdan törədiyini (Hamilton, 1997: 214), Macar alimi Laszlo Rasonyı bu fikrə müxalifət edib oqurların bozqırın qərb ucunda yaşadıqlarını və onların yetirməsi olan çuvaşları digər türk boylarından ayıran xüsusiyyətlərdən birinin də “z” hərfi yerinə “r” hərfini işlətmələrini göstərmişdir (Rasonyı, 1971: 14; Tekin, 1987: 63-65). Qumilyov, Oğuz adının əslini og “boy, qəbilə” təşkil etdiyini, bunun eyni zamanda qədim türklərdəki “o”, “ana” sözüylə birbaşa əlaqəli olduğunu, “Oğuz” öncə mücərrəd olaraq “qəbilə”, “qəbilələr birliyi” anlamında ikən sonralar müəyyən edici anlam qazanaraq xalqın etnik adı olduğunu, zamanla əsl anlamını itirərək türkmənlərin əfsanəvi atası Oğuzun adı olmuşdur (Gumilöv, 1999: 115) deyərək fikrini bildirmişdir. Bu mövzuda bir çox alim öz fikrini bildirmişdir. Sadəttin Göməç isə Hun xaqanı Tanrıqut Baqaturun (Metə) Oğuz ilə eyni şəxs ola biləcəyini vurğulamışdır (Gömeç, 2004: 114-115).

Aydın olduğu kimi bir çox alim Oğuz adı və Oğuznamələrlə əlaqəli olaraq öz fikrini bildirmiş və qəti olaraq bir nəticəyə çatılmamışdır, ancaq ən ağla batan Macar alimi Gyula Nemethin fikirləridir.

Oğuzla bağlı irəli sürülən fikirlərlə birlikdə Uyğurca Oğuznamənin girişində,

bolsun-ğıl *d*ep *d*ediler . **a**nung **a**ngağu-su **u**şbu *d*urur : .

(Bang-Rahmeti, 1936: 10) deyilərək vəhşi buğa rəsminin *Bos primigenius* çəkilməsi Oğuzun adı ilə vəhşi buğa/öküz arasında məcazi bir rabitənin olduğu vurğulanmışdır, ancaq bu mübahisəlidir. Çatalhöyükdəki evlərdə vəhşi buğa başlarının evlərin oturub-durulan hissənin iç tərəfində divara quraşdırılması, o dövrlərdə güc və qüvvət simvolu olaraq vəhşi buğaya hiss edilən hörmətə işarə edərək Asiya türklüyü ilə Çatalhöyük xalqı arasında həm etnik, həm də anlayış yönündən eyniliyi vurğulayır.



Oğuz dastanı türk epik sənətinin və türk dövlət gələnəyinin özülünü qoyanların arkətipi, Oğuz da türk dastan qəhrəmanlarının proto-tipidir. Oğuz xaqan tarixi şəxsiyətdir və bəzi elm adamlarının Hun xaqanı Tanrıqut Baqaturun (Metə) Oğuz olduğunu irəli sürməsi kimi Oğuz bu tarixi şəxsiyyətdir deyə fikir bildirməsi də ümumi olaraq qəbul edilməmiş və bilinməzliyini davam etdirmişdir, ancaq həqiqət budur ki: Oğuz xaqan adlı şəxsiyyət tarixdə yaşamamış olsaydı onunla bağlı dastanlar yaradıla bilməzdi. Bu şəxsiyyət yazının ixtira edildiyi dövrlərdə yaşasaydı mütləq surətdə sənədlərdə qeyd edilərdi, belə bir şey olmadığına görə yazının tapılmasından minlərlə il əvvəllərdə yaşamış və kimliyi ilə həyatı da dastanılaşdırılaraq şifahi mənbələrdə yaşadılmışdır.

Yazının ilk dəfə şumerlər tərəfindən e.ö 3300-3100-cü illər arasında Uruk şəhərində ilahə İnannanın məbədinin olduğu Eannada gil lövhələrə yazıldığı (Adalı-Görgü, 2024: V) məlumdur.

İşarət edilən bilinməzlik yalnızca Oğuz xaqanla məhdudlaşmamış, türklərin doğma yurdunun harası olduğu da eyni biçimdə mübahisə mövzusu olmuşdur. Hal belə ikən tarixî türk yurdu Azərbaycanın adının mənşəyi haradandır, bu adı kim qoymuşdur sualı indiyə kimi bir çox alimin araşdırmalar aparmasına, fikirlər irəli sürməsinə səbəb olmuş, ancaq ortaq bir məxrəcə çatıla bilməmişdir. Z.V. Toqan, Azərbaycanın adının bu bölgəni Makedoniyalı İskəndərin hakimiyyətini qəbul edən və Medianın bəzi bölgələrini onun adına idarə edən

Əhəməni generalı Atropatesin adından mənbələndiyini (Togan, 1979: 93) irəli sürmüşdür. M.Ə. Rəsulzadə və Əhməd Cəfəroğlu da eyni fikri bölüşmüş və "*Azərbaycan milli ensiklopədiyası*" adlı əsərdə də eyni fikir irəli sürülmüş, Azərbaycan termininin e.ö IV yüzillikdə "Adurbadaqan" biçimində anıldığı qeyd edilmişdir (AME, 2007: 99). Şamil Cəmşidov bu adın şumercədə "*Mate*" biçimində qeyd edildiyini, ölkənin adının "*Oderpatekan*"dan gəldiyini irəli sürmüş, Firudin Ağasıoğlu bu fikirdən müxalifət etmişdir (Ağasıoğlu, 2014: 369). Tofiq Hacıyev, "Azərbaycan ədəbi dilinin tarixi" adlı əsərinin 85-ci səhifəsində "Məkəz (Naxçıvanda kənd)=Mək/mak=Maklar; əz/az azların, az/türk etnosunun adı (Hacıyev, 2012: 85) biçimində qeyd edərək "Azların" türk olduğunu vurğulamış; "*Az*"ın bir türk boyu, "*ər*"in igid, "*bay*"ın varlıqlı, "*can<qan*"ın isə məkan anlamındaki sözlərin birləşməsindən "*Azərbaycan*" termininin yarandığını irəli sürmüşdür. Mirəli Seyidov da bu terminin türk tayfası "*Az*"dan yarandığını, "*ər*"in türklərin boy adlarının şəkilçisi olduğunu, "*boy başqanı, zəngin, hakim*" anlamındaki "*bay*" ilə "*qan*" sifət-feil şəkilçisinin birləşməsindən ibarət "*insanın güclü atası və ya mübarək, güclü*" anlamına gəldiyini bildirmişdir (Seyidov, 1989: 11-24; Firudin Ağasıoğlu da Azərbaycanın adının "*Az*" tayfa adından gəldiyini, bu adın "*as/az/kas/xaz/kaz*" biçimlərinin olduğunu "*ər*" şəkilçisinin bu sözlərə qoşulduqda Azərbaycan adını yaratdığını qeyd etmişdir (Ağasıoğlu, 2014: 370-371). Qısaca olaraq Z.V. Togandan T. Hacıyevə, M.Ə. Rəsulzadədən M. Seyidova və F. Ağasıoğluna kimi olan siyasət və elm xadimləri Azərbaycanın adını ya Əhəməni genərali Atropates və ya Ari irqə mənsub As/Az xalqı ilə əlaqələndirmişdir.

"As/Az" xalqının adı Köl Tigin abidəsinin şərq üzündə bu cür qeyd edilmişdir; "

(D 20) Bars (bir) bey idi. Hakan unvanını burada (ona) biz verdik. (Eş olarak da) kız kardeşim prensesi verdik. (Buna rağmen) kendisi hata işledi. (Sonuç olarak) Az'ların hakanı öldü, halkı (da) kul köle oldu. Kögmen ülkesi sahipsiz kalmasın diye Az (ve) Kırgız halklarını örgütleyip geldik (ve) savaştık....

(Tekin, 2006: 12-13).

Tonyukuk abidəsinin şimal üzündə isə "Az" termininin qeyd edildiyi mətn:

Bələdçi istədim. Bozqırdakı **Az**lardan bir adam tapdım. (Ondan belə) eşitdim: "**Az** ölkəsinin (yolu Anı çayı boyunca) imiş. (Ancaq) bir atın keçə biləcəyi kimi imiş. (Özü?) o yoldan (bir kərə) getmiş. Ondan soruşub "Bir atlı getmiş olduğuna görə o yoldan gedə bilərik" dedim. Fikirləşdim. (Tekin, 1994: 11).


Mənbələr belə deyir. Əslində mərhum Seyidovdan, Tofiq Hacıyevə, Firidun Ağasıoğluna kimi olan alimlərlə 1968-ci ildə Ramazan Qurban adlı şəxsin "Azərbaycan Elmlər

Akadəmiyasının Xəbərləri" adlı mənbədə "*Azəri, Atropaten, Azərbaycan Sözləri Haqqında*" adlı məqaləsində irəli sürdüyü iddia ilə eynidir.

Ramazan Qurban Azərbaycan termininin əslini "*azər*" sözünün təşkil etdiyini və bunun da bir çox boyu birləşdirən xalqın adı olduğunu irəli sürmüş, "*Azəri*" terminini keçmiş bir türk xalqının adı olub "*Az*" kişisi anlamını daşıdığını vurğulamış və bu fikrini sübut üçün də "Əski türk xalqlarından Ağanlar özlərini "Ağaç+əri", Azlar da "Az+əri" biçimində adlandırmışdır deyə fikrini yekunlaşdırmışdır (Qurban, 1968: 82).

Mərhum Qurban yazısının irəlidəki sətirlərində Tonyukuk abidəsinə işarət edərək, "Bu əhvalat həmin mənbənin 24-cü bölməsində belə təsvir olunur: …çu tedim, Kögmən yolı bir ermiş tumuş teyin eşidib, bu yolın yarısar yaramaçı tedim… Yerçi tiledim, çelgi **Az** əri bultım…" Tərcüməsi: (Biz Qırğızlara qarşı yürüşə çıxmaq istəyirdik. Kögməni keçmək üçün yalnız bir keçidin olduğunu və onun da 'ilin bu vaxtı' bağlı olmasını bilib, bu yolla getməyin vacib olduğunu söylədim. Bir bələdçi axtarmağa başladım və o ölkəni bilən bir **Az** əri buldum…) (Qurban, 1968: 83).

R. Qurban eyni səhifədə, "Radlof və Thomsən mətnin tərcüməsində böyük bir təhrifə yol vermişdir. Onların hər ikisi ***azəri*** sözünü Orxon mənbələrində oxuyarkən sözün ikinci, yəni -***əri*** hissəsini atmış yalnız birinci, yəni ***az*** hissəsini saxlamışlar. Onların tərcüməsi belə olmalıdır: Mən uzaq ölkədən bir **azəri** buldum kimi tərcümə olunmalıdır" (Qurban, 1968. 83) deyərək Radlof və Thomsənin tərcüməsini kabul etməmişdir. Radlofun bu əsərindən götürülən hissə:


24) . . . . a ṣö . . . . ṭḍm cöḡmṇ joli ḅiṛṛmṣ tomṣ
. . . . cÿ . . . . тäдiм Кöгмäн joлi бiр äрмiш тумуш
ṭjṇṣḍp bojoln jorisr jrmčiṭḍm . . . . jrčiṭḷḍm
тäjiн äшiдiн бу joлун jорысар jарамачы, тäдiм . . . . jäрчi тiläдiм
čöḷgizṛi boltm
чöлri Аз äрi бултым.

(Radloff,1899: 13).


Tonyukuk abidəsinin şimal üzü:

23. [ilk kıırk(ı)zk]a : sü[l(ä)s](ä)r [y(e)g (ä)r]m(i)ş : t(e)d(i)m : kööğm(ä)n : yolı : bir (ä)rm(i)ş : tum(i)ş t(e)y(i)n : (e)ş(i)d(i)p : bu yol(u)n : yorıs(a)r : y(a)r(a)m(a)çı t(e)d(i)m : y(e)rçi t(i)l(ä)d(i)m : çölgi (a)z (ä)ri : bult(u)m

(Tekin, 1994: 11).

Həm Radlof, həm də Talat Tekin "çölgi **Az əri** bultum" şəklində oxumuşdur.

Mərhum Qurban bu məqaləsində, “**Azərilərin**” türklərin bir boyu olduğu iddiasını sübut üçün bir çox fikirlər irəli sürmüş və hətta “Divanu Lûgati’t Türk”də də “*az*” termininin xoşbəxt, bacarıqlı anlamlarında olduğunu da iddia etmişdir (Qurban, 1968. 83).



ااز az : "اازنڭ az nenğ = az nesne".

ااز az : Ars, as, kakım. (Bu kelimeyi س ile söylemek daha doğrudur).

(Mahmut-I, 1985: 80)

Ancaq “Divanu Lûgati’t Türk”də “az” termini, yuxarıdaki kimi əşya olaraq az, heyvan olaraq kakım (*Mustela erminea*) biçimində açıqlanmışdır. Qurbanın bu fikri “Az” xalqı ilə bağlı olaraq irəli sürdüğü iddia kimi tutarlı deyildir.

Bir digər nöktə isə Talat Tekin, Radlof və Thomsen o mətnləri eyni biçimdə oxuyub-yazmış, hətta Ramazan Qurban da həmin mətndə “Az” sözünü ayrı “ər”i ayrı yazmış, ancaq daha sonra bunları birləşdirərək “Azər”, “Azəri” etmişdir, bu sözləri nəyə, hansı elmi əsasa və fikrə görə birləşdirmiş başa düşmək çətindir. İranda da Rza Pəhləvi şah olduqdan sonra öncə Mahmud Avşar sonra da Əhməd Kəsrəvi Güney Azərbaycan Türkləri ilə bağlı belə bir iddia ilə çıxış etdilər: “Siz azəri idiniz monqollar gəlib sizi türkləşdirdilər”.

Tatar alimi Mir Fatih Zəkiyev də Azərbaycan türklərinin atalarının Ar/İr, As/Az, Bi/Pi/Bəy, Sün/San/Şan vb. adlarını daşıyan xalqların yaşadığını, Azər, Bəylər, Sünlər kimi xalqların qarışmasıyla Az-Ər-Bi-Can Azərbaycan adını alan yeni bir etnik biçimi yaratdığını iddia etmişdir (Zekiyev, 2002: 626).

As/Az xalqının türk olmasıyla bağlı bütün bu iddialara ən gözəl cavabı Çin salnaməsi “***Han-shu***” vermişdir. Çin dövlətinin Ban Biao adlı tarixçisi, “***Shi Ji***” adlı 12 cildlik Çin salnaməsinin davamı olan 65 hissəlik “***Hou Zhuan***”ı yazmış, miladi 54-cü ildə öldükdə, oğlu ***Ban-Qu*** atasının yazdığı “Hou Zhuan” adlı salnaməni kifayətli detallı görməyib yenidən nizama salmış və tərtiblədiği bu əsər “Han Shu”nun özülü olmuşdur. Çin salnaməsi “Shi-Ji”nin önəmli bir hissəsi olan “Han Shu” e.ö 206-miladi 23 illər arasını əhatə etmişdir (Orsoy, 2014: 554). “Han Shu” adlı salnamədə As/Az xalqının geyimləri və ənənələri ilə Ari irqə mənsub və Soğd xalqıyla yaxın qohum olduğu, əhali saylarının %10-ində monqol qarışığı olduğu və qonşuları Hunlarla uzun müddət bir arada yaşadıqlarından onların bir çox ənənəsini mənimsədikləri qeyd edilmişdir (Yatsenko, 2014: 775). Elmi mənbələr bunu deyirsə türklər öz

yurdlarına Ari irqə mənsub bir xalqın adını vərə bildiyini fikirləşmək və belə bir iddianın irəli sürülə bilməsi düşündürücü olduğu qədər də elmi əsaslara uyğun gəlmir.

Asya qitəsində Sarı çayın döngəsinə kimi olan bölgələrdə yaşayan bir çox türk tayfasının tarixin müxtəlif dövrlərində bəzi tarixi, siyasi, təbii səbəblərdən asılı olaraq yaşadıqları bölgələri tərk edərək qərbə üz tutub yeni coğrafiyalara gedib məskunlaşdığı və öncə yaşadıqları coğrafiyaların adlarını buralardaki çeşidli yerlərə verdikləri bilinməkdədir. Buna nümunə kimi "***Dağlıq Altay Yer Adları***" adlı əsərin 9-cu cildindən bir neçə yer adı: ***Ak Suu*** (Çertikova-Orsulova, 2023: 41), ***Ak Taş*** (Çertikova-Orsulova, 2023: 51), ***Kök Köl*** (Çertikova-Orsulova, 2023: 52), ***Kızıl Kaya*** (Çertikova-Orsulova, 2023: 62), ***Sarı Yalman*** (Çertikova-Orsulova, 2023:72), ***Çadırlu*** (Çertikova-Orsulova, 2023: 82). Bu adlar Azərbaycanda və Türkiyədə də vardır.

Yuxarıda anılan alimlər tərəfindən dilə gətirilən fikirlərdə Azərbaycanın adının "*Az/As*"ların adının müəyyən şəkilçilər alaraq yaranması mövzusunun irəli sürülməsi zorlama etimoloji yozum və fərziyyə xarakteri daşımasından özgə şey deyil və elmi prinsiplərə də uymamaqdadır. Bu düşüncəyə mənfi yaxınlaşılmasının səbəbi də türklərin coğrafi yerlərə ad vermə gələnəyi ilə bağlıdır. Türklərin tarix boyu yaşadıqları coğrafiyalara baxıldığı zaman yer adlarının türkün öz anlayışına görə və yer adı elminə uyğun biçimdə, müəyyən prənsiplər nəzərə alınaraq verildiyi aydın olur. Bu prinsiplər bunlardır: *Boy, şəxs, məslək, dini anlayış, yerin xüsusiyyətləri, yerin özgə yerlərə görə tutduğu məkan, iqlim və ya fauna xüsusiyyətləri, su, sayı, bölgədə yaşayan və ya bəslənən heyvanlar, rəng və yön, qala-bürc, viranə* kimi xüsusiyyətlərdir (Süme, 2018: 268; Önal-Şenel, 2016: 64-73; Kurgun, 2007: 740-742). Bunları təsnif etdiyimizdə boy adına görə *Bayat, Dodurqa*, *Qarkın*; şəxs adına görə *Alpaqut, Oğuz, Barakobası*; dini anlayışa görə *Pirəhmədli, Seyidli, Sofular*; peşə ilə bağlı olaraq *Çarıqçı, Yaycı, Dəmirçi, Dülgərli*; olduğu yerin xüsusiyyətinə görə *Quruçay, Daş Salahlı, Yumruqaya, Qaracadağ, Daşlıçay, Çuxuroba*; yerin özgə bir yerin tutduğu məkana görə *Yuxarı Çamurlu, Ortaköy, Aşağı Sofular*; iqlim və faunasına görə *Qaraqışlaq, Qarlıova, Ağcaqovaq, Almalı, Qozlu*; su ilə bağlı olaraq *Ağbulaq, Daşbulaq, Qurucadərə, Bulanıq*; sayı ilə bağlı olanlar *Beşdağ, Üçkilisə, Beşbalıq, Beşoba*; heyvan adlarıyla bağlı olanlar *Ceyranlı, İlanlı, Keçiqıran, Alayundlu, Keçilioba*; rəng və yönlərlə bağlı olanlar *Ağdərə, Ağsu, Göyçə, Qaracadağ*; örən yerlərlə bağlı olanlar *Virancıq, Qaracaviran, Viranşəhər*; qala və bürc ilə bağlı olanlar *Cingözqala, Qala Kəndi, Qoşaqala* kimi örnəklər göstərilə bilər. Azərbaycanın adı "*Az/As*" xalqının adından gəlmiş olsa və Azlar da Türk olsa idi bura *Azyurd, Azeli, Azlu, Azoba* kimi bir ad verilə bilərdi. Bu əsaslar da adın "*Az/As*" adlı Ari irqə mənsub xalq ilə əlaqəli olmadığını sübut edir.

*“Şəcəre-i Tərakimə”*yə görə Oğuz ömrünün son vaxtlarında qərbə etdiyi Suriya və Misir səfərində bugünkü Azərbaycan coğrafyasını da özünə tabe etmişdir (Bahadır Han, 1996: 242; Bahadır Han, 1977: 39). Oğuznamədə də “*Oguz tamamət İran və Turan və Şam və Misir və Rum və qeyri vilayətləri tutdı və andan sonra ki, cümləsin müsəxxər itmişdi”* (Ali, 2017: 17; Togan 1972 39-46; Ercilasun 2019: 230) şəklində həm Əbülgazi Bahadır xanın topladığı Oğuznamədə, həm Rəşidəddin Fəzlullah Həmədaninin Oğuznaməsində, həm də Uyğurca Oğuznamədə bölgənin Oğuz tərəfindən alındığı tarixi bir həqiqət kimi qeyd edilmişdir.

Güney Hindistanda yaradılan Qütbüşahilər dövlətinin sultanı Abdullah adına (Demiroğlu, 1992: 432) *Məhəmməd Hüseyn bin Xələf Təbrizî* tərəfindən 1652-ci ildə yazılan “*Burxan-ı Katı*” adlı lüğətin I cildində “*Azərbaygan/Azərbadgan*” maddəsində verilən məlumatlarda deyilir: *Oğuz xan* Suriya səfəri əsnasında rəhbərliyindəki orduyla “*Ocan/Ucan*” çölünü -Bu bölgə Təbrizin 50 km qədər şərqindədir və indiki adı “*Bostanabad*”dır- alaraq özünə tabe etmiş, Oğuz bölgəni çox sevmiş və əsgərlərinə əmr edərək bölgədə süni bir təpə yaradılmasını istəmiş, ən əvvəl özü ətəyinə biraz torpaq alıb aparıb ora tökmüş və əmrindəki on minləri ötən ordusu tərəfindən yaradılan bu böyük təpəyə “*Azərbaygan*” adını vermiş, bölgənin məşhur olması üçün də əlindən gələn heçbir şəyi əsirgəməmiş, 28 il bölgədə yaşamışdır. ”*Azər*” qədim türkcədə “*yüksək, təpə; yüksəklik, təpəlik*”, “*baygan*” isə “*möhtəşəmlər, hörmətlilər, böyüklər*” anlamındadır. Daha sonra bura ad olaraq qoyulan “*Azərbaygan*” sözü ərəbcədə “g” səsi olmadığından və “g” səsi “c” ilə əvəz edildiyinə görə “*Azərbaycan*” şəklinə düşmüşdür. Yenə eyni yerdəki məlumata görə Təbrizin böyük bir bölgə və mərkəzinin də *Təbriz* şəhəri olduğu vurğulanmışdır (Tebrizî, 2009: 35; Rəisniya-I, 1989: 98-99).

Həmin mövzu mərhum Z.V. Toganın “Oğuznamə” adlı əsərində də Fəzlullah Həmədaniyə istinadən eynilə qeyd edilərək deyilib ki, Oğuz Hindistan, Garcistan və Buxara, Xarəzm, Başqırd, İdil boyları, Dərbənd, Şirvan, Arran, Muğan, Savalan Dağı, Azərbaycanı almış və Ucan çölündə özünün də ətəyinə torpaq doldurub aparıb tökərək bura “Azərbaynan” demiş, buradan Bağdad, Diyarbəkir, Gürcistan, Şam, Ərbil, Mosuldan sonra Antakiyaya getmiş və bir il vuruşmuş, Misiri, Frənk ölkəsini, Bağdad, Bəsrə, Fars və Kirmanı tutmuşdur” (Togan, 1982: 21-47) deyə qeyd edilmişdir. Ancaq buna baxmayaraq mərhum Toganın, Azərbaycanın adını nəyə görə Atropaten ilə əlaqələndirdiyi başa düşülməməkdədir.

Oğuz, yazının tapıldığı dövrlərdə və ya dərhal sonrasında yaşamış olsaydı Şumer, Akkad, Hitit, Asur, Urartu mətnlərində adı anılardı, çünki Oğuz onların hakim olduqları yerləri özünə tabe etmişdir. İlk və Orta əsrlərdə yaşamış olsaydı Çin salnamələri, Bizans və Roma mənbələri ondan bəhs edərdi. Bütün bu mənbələrdə anılmadığına görə Oğuz e.ö 3200-cü ildən minlərlə il

öncə yaşamış və yaşadığı bölgə ilə türklərin ilk ata yurdunun Cənubi Sibir bölgəsi olması daha məntiqlidir, çünki bu bölgədə tapılan türklərə məxsus dəfn adəti e.ö 22 000 ilinə gedib çıxmaqdadır. Türklər bu bölgədən hərəkət edərək Azərbaycan, Anadolu, Qıpçaq çölləri və Orta Avropaya kimi olan yerləri də özlərinə vətən tutmuş, ancaq bir çox yer tarixin müəyyən dövrlərində əldən çıxmışdır.

Böyük Hun imperiyasının sərhədləri Xəzərin şimalına kimi çatmış, onların davamçısı Göytürk imperiyası dövründə də aşağıdakı xəritədə görüldüyü kimi Azərbaycan bölgəsi bu dövlətə tabe olmuşdur. Bundan hərəkət edərək Azərbaycanın adının Məhəmməd Hüseyn bin Xələf Təbrizi tərəfindən 1652-ci ildə Fars dilində hazırlanıb çap etdirilən və mərhum Asim Əfəndi tərəfindən *Tıbyân-ı Nâf'î dər Tərcümə-i Burhân-ı Katı* adıyla türkçəyə tərcümə edilən "*Burhan-ı Katı*" adlı lüğətdə, Oğuznamədə də əks etdirilən və Oğuz xaqan tərəfindən əsgərləriylə birlikdə ətəyində torpaq daşıyaraq yaradılan təpəyə verilən "*Azərbaygan*" adından törədiyi elmi əsaslara da uyğundur.



"Azər", "Azərî" və "Azəricə" terminlərinə gəldikdə Belazori, Yəqubi, İbn Havkal, Məsudi və Müqəddəsi, Azərbaycan bölgəsində yaşayan *Ari* irqə mənsub xalqın xüsusi ləhcəsi olduğunu, onlara "*azərî*" deyildiyini və bu ləhcəni ora xalqından özgə heç kəsin başa düşmədiyini irəli sürmüşdür (Köprülü, 1979: 119). Bunların içində xüsusilə Yəqubi IX yüzillikdə bu terminin Azərbaycan bölgəsində yaşayan Ari köklü xalqların adı olduğuna işarə etmişdir (Köprülü, 1981: 118). Bunların tamamı haqlıdır, çünki "*Azərî*" deyə anılan xalq bugün Fars adlı irqin bir qoludur və *Xalxal* bölgəsində qalıqları yaşamaqdadır, bunlar tarix boyu "*qədim Fars*" dilində danışmış və *Məcusi* inamında, atəşpərəstdilər. Bunların bir qismi X yüzillikdən etibarən Farslar, bir hissəsi də Güney Azərbaycan türkləri arasında asimilyasiyaya uğramışdır. Azəri xalqının bugünkü əhali sayı isə təqribən 30 000 qədərdir (Altaylı-I, 2018: 296-297).

“Az/As” tərimindən hərəkətlə yaradılan “Azər”, “Azər xalqı”, “Azəri” və “Azəricə” teminləri arxeoloji, etnoloji və mədəni dəlillərə görə ziddiyyətlidir (Altaylı-I, 2018: 296-297). Minbaşı rütbəsindəki Rza Pəhləvinin 1924-cü ildə ingilislərin oyunu ilə şah düzəldilməsindən və İranın Pəhləvi xanədanının caynağına keçməsindən sonra öncə Mahmud Avşar Yəzdi vasitəsilə bir nəzəriyyə irəli sürülmüşdür. Bu nəzəriyyəyə görə Güney Azərbaycan Türklərinə deyilmişdir; “*Siz Azəri idiniz, Səlcuqlar və Monqollar gəlib sizləri Türkləşdirdi*”. Bu nəzəriyyəyə görə monqollar Ari irqə mənsub Azərilərə türkcəni öyrətməsi hansı elmi əsasa uygundur? Bu suala indiyə kimi heç bir cavab verilə bilməmişdir, çünki bu iddia imperialist təbliğat mexanizminin əsəridir. Daha sonralar müəyyən məqsədlərlə irəli sürülən bu nəzəriyyənin *Seyid Əhməd Kəsrəvi*yə də təsdiqlədilməsinin adi bir fikir, təsadüfi bir düşüncə olmadığı aydındır. Rza Pəhləvinin oğlu Məhəmməd Rza Pəhləvi tərəfindən atasının siyasətinin eynən həyata keçirilməsi və onu devirərək idarəni ələ keçirənlərin də bu siyasəti eynilə davam etdirməsi mövzunun altında yatan şeytani siyasətin həqiqi yönüylə başa düşülməsinin türk milləti və dövlətləri üçün yararlı olacağı açıqdır.

Ruslar 1722-ci ildə Dərbəndi keçib Bakı yaxınlığına kimi gəlmiş, Səfəvilər Əfqanıstanın işğalı ilə məşğul ikən üzlərini Bakı tərəfinə çevirə bilməmiş və yetişilən sazişlə Bakı, Dərbənd, Mazəndəran, Gilan bölgələri Ruslara buraxılmış, Osmanlı dövləti də buna səsini çıxarda bilməmiş, Nadir Şahın 1736-cı ildə hakimiyyətə gəlməsi ilə (Kırca, 2021: 3) İranda Avşarlar dövrü başlamışdır. Nadir, Osmanlı və Rus qüvvələrini bölgədən çıxarsa da 1747-ci ildə vəfatı və Osmanlının da tənəzzül dövrünə üt tutmasıyla güc təkrar Rusların xeyrinə dəyişmiş, Azərbaycanda xanlıqlar dövrü başlamış, 19-cu yüzilliyin başlarından etibarən Ruslar Azərbaycan xanlıqlarını işğala başlamış, Gülüstan və Türkmənçay sazişləri ilə Azərbaycan ikiyə bölünərək şimalını ruslar işğal etmiş, güney də hakimiyyətə gələn Qacarlara buraxılmış, bu tarixdən sonra Şimali Azərbaycanda daimi inkişaf xətti izləyən millətçilər 28 May 1918-ci ildə Məmməd Əmin Rəsulzadənin rəhbərliyində və Qafqaz İslam Ordusunun köməyi ilə *Azərbaycan Cümhuriyyət*ini yaratmış, ancaq 27 aprel 1920-ci ildə “*Qızılordu*” tərəfindən təkrar işğal edilmiş, müəyyən dövrlərdə soyqırım xarakterli qırğınlarla üzləşilmiş, xüsusilə ziyalılar *Bolşevik* hakimiyyəti altında qırılmış, Cümhuriyətdə 1937-ci ilə kimi pasportlarda etnik köklə bağlı olaraq “*türk*” yazılmış, eyni il *Stalin*in əmri ilə türk adı götürülərək özləri tərəfindən uydurulan qondarma “*Azərbaycanlı*?!” termini yazılmış və o gündən bəri bu ad dəyişməmişdir (Altaylı, 2012: http//www.adalət-az.com).

Bu gerçəklikdən hərəkət edərək Türkiyədə xüsusilə ziyalı təbəqənin, siyasətçilərin və mətbuat-nəşriyyat orqanlarında işləyənlərin, mövzunun mahiyyətinin dərinliklərinə enmədən,

bu terminin altındakı şeytani niyyətləri başa düşmədən Azərbaycan Türkləri üçün "*Azərî*", danışdıqları dilə də "*Azəricə*" deyilməsi olduqca qərəzli, təhlükəli və narahat edicidir.

NƏTİCƏ

İndiyə kimi əldə edilən arxeoloji, etnoloji və mədəni sənədlər türklərin ilk çıxış yerinin Cənubi Sibir *və xüsusilə Baykal* bölgəsi olduğuna və son buzlaq çağından sonra öncə Altay bölgəsinə, oradan da müxtəlif yerlərə yayıldığına işarət etməkdədir.

Təqribən 70.000 il öncə başlayan və 18.000-20.000 il öncə ən yüksək zirvəsinə çatan Würm buzlağı günümüzdən təqribən 12 000 öncə sona çatdıqdan və yüz illərlə yüksələn suların çəkilməsi ilə Cənubi Sibir bölgəsindən Altaya, oradan da Asiyanın müxtəlif yerlərinə dağılmağa başlayan türk tayfaları mifik çağlardan etibarən Qafqazya, Qaradənizin şimal bölgələri, Qıpçaq çölləri, Azərbaycan, Anadolu, Ön Asiya və Aralıq dənizinin şimal bölgələrinə Misir və Yəmənə kimi hakim olmuş və anılan coğrafiyaları hərkəsdən öncə vətən eləmişdir. Türklər Anadolu və Azərbaycana sonradan gəlməmiş, onların bu coğrafiyalarda yaşadıqları və buraları vətən elədikləri dövrlərdə Hind-Avropa köklü xalqların bəziləri indiki coğrafiyalarına çox sonralar kiçik icmalar biçimində gələrək məskunlaşmışlar. Qərblilər öz mədəniyyətlərinin Yunan mədəniyyəti özülü üstündə yüksəldiyini daimi olaraq dilə gətirmişdir, ancaq yunan mədəniyyəti Makedoniyalı İskəndərin e.ö 4-cü yüzillikdən etibarən bölgədə hakim olmasından sonra özünü göstərmiş və buranın yerli xalqı olan Turkan türklərini deportasiya edərək öz hakimiyyətlərini qurmuşdur, eynilə bugün Fars adıyla anılan xalqın adsız və kimliksiz biçimdə Hindistandan gəlib uzun illər Elam dövlətinə sığınaraq çobanlıq və xidmətçilik elədikdən və bu dövlətin zəifləməsindən sonra üsyan edərək onların yurdunu caynaqlarına keçirdikləri kimi.

Azərbaycanın adı türk dövlət gələnəyinin özülünü qoyan mifik dastan qəhrəmanı Oğuz xaqan tərəfindən verilmişdir. Bu adın hardan bəhrələndiyini özgə yerlərdə axtarmaq və özülsüz fərziyyələr irəli sürmək çəkilən əməklərin hədər olmasından ibarətdir. Oğuz xaqanın vərdiyi adı həm dastanlar, həm də yer adı elmi təsdiqləyir. Azərbaycanın adının Atropatenin adıyla əlaqəli olduğunu və ya Ari irqə mənsub As/Az xalqından törədiyini irəli sürən şəxsiyyətlər, yuxarıda da elmi dəlillərdən hərəkət edərək vurgulandığı kimi yanılğıya düşmüşlər.

Türklərin arxeoloji yayılımı və Azərbaycanın adı mövzusunun "Oğuz Teorisi" olaraq anılması, Oğuzun şəxsiyyəti ətrafında biçimləndirilməsi və Azərbaycanın adının onun tərəfindən verilməsi olayı, əfsanəvi və büyük tarixi türk şəxsiyyətinə duyulan vəfa borcunun ödənməsi kimi düşünülməktədir.

KAYNAKLAR

1. Adalı, Selim F.-Görgü, Ali T., Babil Yaratılış Destanı -Enuma Eliş-, XIV. Basım. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları
2. Ağasıoğlu, Firudin. (2022). İslamöncəsi Türk Tarixi, Bitik III, Palmali Group of Companies. İstanbul: Qrifli nəşr
3. Altaylı, Seyfəddin-Hüseynova, Nigar. (2018). Türk Xalqları Ədəbiyyatı (Ali məktəb tələbələri üçün dərs vəsaiti). Bakı: Əlm və Təhsil
4. Altaylı, Seyfəddin. (2012). "Biz Azəriyik?!" 02. 30. 2010: http//www.adalət-az.com
5. Azərbaycan Milli Ensiklopədiyası. (2007). Bakı: AME Elmi Mərkəzi
6. Bahadır Han, Ebülgazi. (1977). Şecere-i Terakime (Türklerin Soy Kütüğü), (Haz: Muharrem Ergin), 1001 Temel Eser. İstanbul: Kervan Kitapçılık A.Ş
7. Bahadır Han, Ebülgazi. (1996). Şecere-i Terâkime (Türkmenlerin Soykütüğü), (Haz: Zuhal Kargı Ölmez). Ankara: Şafak Matbaacılık
8. Bang. W-Arat, G.R., (1936). Oğuz xaqan Dastanı, İstanbul: Burhaneddin Basımevi
9. Baskakov, N.A. (1986). Oğuz, Oğuz-Ḳağan Etimolojisi Üzerine, İstanbul Üniversitesi Türk Dili ve Edebiyatı Dergisi, cilt 24, s. 35-37
10. Bazin, Louis. (2015). "Oğuz" ve "Türk" Sözleri Üzerine Notlar, çev. Ebru Kabakçı, Türk Dünyası Dil ve Edebiyat Dergisi, Sayı 39, s. 33-40
11. Çertikova, M.D-Orsulova, T.E. (2023). (İnceleyiciler), Toponomika Respubliki Altay, C 9, Ulaqanskiy Rayon, S.S. Surazakova Adına Altaistik araşdırma Enstitüsü
12. Demiroğlu, Ayla. (1992). Burhân-ı Kâtı, TDV İslam Ansiklopedisi, C 6. Ankara: TDV Yayınları
13. Duymaz, Ali. (2007). Oğuz xaqan Dastanı'ndan Dede Korkut Kitabı'na Kahramanların Beden Tasvirlerinin Sembolik Anlamları Üzerine Değerlendirmeler, Milli Folklor, il 19, sayı 76, s. 50-58
14. Ercilasun, A. Bican. (2019). Nehir Destan Oğuzname (Oğuz Bitig), İstanbul: Dergâh Yayınları
15. Hacıyev, Tofiq. Azərbaycan ədəbi dilinin tarixi. (I hissə) Ali Məktəblər Üçün Dərslik, Bakı: Elm
16. Hamilton, J.R. (1997). Tokuz-Oğuz ve On Uyğur, Çev. Yunus Koç-İsmet Birkan, Türk Dilleri araştırmaları 7, Ankara: Simurg Yayınları, 187-232
17. İnan, Abdülkadir. (1936). Güneş Dil Teorisi Üzerine Ders Notları. İstanbul: Devlet basımevi
18. Kafesoğlu, İbrahim. (1998). Türk Milli Kültürü. İstanbul: Ötüken Yayınevi

19. Kırca, Umut. (2021). Nadir Şah Dönemi Afşarlı Tarihi'nin Ana Kaynakları, İRTAD, SAYI 6, s. 1-15

20. Korkmaz, Zeynep. (2010). Oğuz Türkçesinin tarixî Gelişme Süreçleri, Turkish Studies, International Periodical For the Languages, Literature and History of Turkish or Turkic, Volume 5/1 Winter

21. Köprülü, M. Fuat. (1981). Türk Edebiyatı Tarihi. İstanbul: Ötüken Yayınevi

22. Köprülü, M. Fuat. (1989). Azerî maddesi, İslam Ansiklopedisi, C 2. İstanbul: Milli Eğitim Basımevi

23. Kurgun, Levent. (2007). Türk Yer Adlarının Sistematiği, A.Ü. Fen-Ed.Fak. Türk Dili ve Edebiyatı Bölümü Uluslararası Türklük Bilgisi Sempozyumu, 25-27 Nisan, Bildiriler Kitabı-2, Erzurum

24. Mahmut, Kaşgarlı. (1985). Divanü Lûgati't Türk Tercümesi, (Terc: Besim Atalay). Ankara: TDK Yayıynları

25. Nalbant, Bilge Özkan. (2010). "Oğuz" Sözcüğünün Kökeni Üzerine Yeni Düşünceler, Türkbilig, sayı 20, s. 47-59

26. Orsoy, Sema. (2014). Çin'in Resmi Hanedanlık Kayıtlarında Türk Kavimlerine mexsus Monografiler, Türkler Ansiklopedisi, C I. Ankara: Yeni Türkiye Yayınları, s.554-572

27. Önal, Aysun Gündüz-Şenel, Mustafa. (2016). Yer Adları (Toponim) Açısından Divanü Lûgati't-Türk, KARADENİZ, (32)

28. Pelliot, P. (1995). Uygur Yazısıyla Yazılmış Uğuz Han Dastanı Üzerine, (çev. Vedat Köken). Ankara, TDK Yayınları

29. Qurban, Ramazan. (1968). Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası. Bakı: Azərbaycan SSR El Nəşriyyatı

30. Radloff, W. (1899). Alttürkıschen Inschrıften der Mongoleı, Die Inschrıft des Tonjukuk, St. Petersbourg.

31. Rasonyı, Laszlo. (1971). Tarihte Türklük. Ankara: TKAE Yayınları

32. Rəisniya, Rəhim. (1989). Azərbaycan Der Seyri Tarixi İran, C I. Təbriz: Nima nəşriyyatı.

33. Seyidov, Mirəli. (1989). Azərbaycan Xalqının Soykökünü Düşünərkən, Bakı: Yazıçı

34. Sinor, Denis. (1950). Oğuz xaqan Dastanı Üzerine bezi Mülâhazalar, İ.Ü, Türk Dili ve Edebiyatı Dergisi, IV/1-2. (Çev. Ahmet Ateş). İstanbul, s 1-13

35. Süme, Mehmet. (2018). Türklerde Yer Adı Verme Geleneği ve Oğuz Boylarının Bolu'daki İzleri, AİBÜ Sosyal Bilimler Enstitüsü Dergisi. Cilt 18, Sayı 1, Bolu

36. Sümer, Faruk. (1972). Oğuzlar (Türkmenler) Tarihleri-Boy Teşkilatı-Destanları, İkinci Baskı. Ankara: Ankara Üniversitesi Basımevi

37. Şenel, Mustafa-Yavuz, Serdar. (2013). Yer Adları (Toponim) Teminleri Sözlüğü, Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 8/8 Summer

38. Tebrizi, Muhammed Hüseyin bin Halef. (2009). Burhan'ı Katı, (Çev: Mürsel Öztürk). Ankara: TDK Yayınları

39. Tekin, Talat. (1987). Tuna Bulgarları ve Dilleri. Ankara: TDK Yayınları

40. Tekin, Talat. (1994). Tunyukuk Yazıtı. İstanbul: Özener Matbaacılık Limited Şirketi

41. Tekin, Talat. (2006). Orhon Yazıtları. Ankara: TDK Yayınları

42. Togan, Z. Velidi. (1979). Azerbaycan Maddesi, İslâm Ansiklopedisi, C 2. İstanbul: Milli Eğitim Basımevi

43. Togan, Zeki Velidi. (1982). Oğuz Dastanı (Reşideddin Oğuznâmesi, (Tercüme ve tahlili), 2. Baskı. İstanbul: Enderun Yayınları

44. Yatsenko, Sergei. (2002). Vusunlar, Türkler. Ankara: Yeni Türkiye Yayınları, s.776-781

45. Yüksekkaya, Gülden Sağol. (2020). Çok Tartışılan Bir Ad: Oğuz, Tonyukuk Kitabı, (Haz: Kürşat Yıldırım). İstanbul: Türk Ocakları İstanbul Şubesi Yayını

46. Zekiyev, Mir Fatih. (2002). Ön ve Orta Asya, Kafkasya, Karadeniz'in Şimalıi, İdil-Ural ve Batı Sibirya'daki Eski Türkler, Türkler Ansiklopedisi, C I. Ankara: Yeni Türkiye Yayınları, s. 424-431